◆ Quruculuq və mədəniyyət paytaxtından reportaj





**Mayın 10-da, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü günündə Azərbaycanın tarixində növbəti təntənəli hadisə yaşandı: Qarabağın tacı olan Şuşanın 28 ildən artıq məcburi köçkünlük həyatı yaşamış sakinləri məhz həmin gün doğma şəhərə qayıtdılar. Onlara mənzillərinin açarlarını Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva təqdim etdilər.**

# Şuşa gündən-günə gözəlləşir

## Prezident İlham Əliyevin diqqət və qayğısı ilə...









Şuşaya səfərimiz şəhərin öz doğma sakinlərini qəbul etməsindən bir neçə gün əvvələ təsadüf etmişdi. Qala şəhərimiz nəhəng tikinti meydanını xatırladırdı. Şuşanın hansı səmtinə, hansı məhəlləsinə getsən, möhtəşəm quruculuq işlərinin həyata keçirildiyini görmək mümkündür: həm tarixi binalar bərpa olunur, həm şəhərin yeni infrastrukturu yaradılır, geri dönəcək şuşalılar üçün yeni evlər inşa edilir. 28 ildən artıq davam edən işğal dövründə ermənilərin şəhərdə törətdikləri vandallıqların bütün nəticələri sürətlə aradan qaldırılır.

### Güclü Azərbaycanı simvolizə edən möhtəşəm quruculuq

Şuşa Azərbaycanın tarixidir, xalqımızın mədəniyyət beşiyidir, mənəviyyatıdır, kimliyidir. Şuşa öz memarlığı ilə, xalqımızın ədəbiyyatına, incəsənətinə verdiyi əvəzsiz töhfələrlə tariximizdə özünəməxsus yer tutur. Ona görə Vətən müharibəsi zamanı Şuşanın işğaldan azad edilməsinin xalqımız üçün həm tarixi-siyasi, həm də mənəvi əhəmiyyəti vardı. Təsadüfi deyil ki, Şuşanın azad edilməsi Vətən müharibəsi tarixinin ən əsas hadisələrindən birinə çevrildi. Şuşanın azad edildiyi tarix isə təqvimə Zəfər Günü kimi daxil oldu.

Şuşa həm də xalqımızın elə bir mədəni və mənəvi hadisələr məkanıdır ki, 28 ildən artıq davam edən işğal müddətində ermənilərin törətdikləri vandallıqlar onun qamətini əyə bilməmişdi. Ermənilər nə qədər çalışsalar da, nə qədər cəhdlər göstərsələr də, Şuşanın tarixi simasını dəyişə və onu erməniləşdirə bilməmişdilər. Çünki bu əzəmətli şəhəri Azərbaycandan, xalqımızdan qoparmaq sadəcə mümkün deyil. Prezident İlham Əliyevin mayın 10-da şuşalılarla görüşdə dediyi kimi: "Şuşanı nə qədər erməniləşdirməyə çalışsalar da, ona nail ola bilməyiblər. Çünki Şuşa əzəldən Azərbaycan şəhəri olub, işğal dövründə də öz azərbaycançılıq simasını qoruyub saxlayıb".

Düşmən Şuşanı erməniləşdirə bilmədiyi üçün bunun əvəzini şəhərin tarixi binalarından, mədəniyyət və memarlıq nümunələrindən, məscidlərindən çıxaraq, onlara qarşı barbarlıq ediblər. Lakin düşmənin vurduğu bütün yaralar artıq sağalır. Həyata keçirilən quruculuq işlərinin nəticəsi kimi Şuşa nəinki tarixi şöhrətini bərpa edir, həm də əzəmətli, Azərbaycanın yüksəlişini simvolizə edən şəhər kimi dirçəlir. Bu günlərdə Şuşaya etdiyimiz səfər zamanı da şəhərdə aparılan yenidənqurma işlərinin miqyasını yaxından müşahidə etdik. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin xüsusi diqqət və qayğısı ilə həyata keçirilən bərpa işləri həqiqətən də möhtəşəmdir.

### Şuşaya gedən yollar

Vətən müharibəsinin başa çatmasından bir neçə gün sonra təməli qoyulan 101 kilometrlik Zəfər yolu Prezident İlham Əliyevin Şuşanın bərpasına verdiyi xüsusi önəmin göstəricisi idi. Eyni zamanda bu yol Azərbaycanın qələbəsini, ordumuzun qəhrəmanlığını simvolizə edir. Qısa vaxtda icra edilən və dünyada analoqu olmayan bu layihə Azərbaycan dövlətinin gücünü, onun malik olduğu potensialı və ən əsası isə Prezident İlham Əliyevin qətiyyətini bütün dünyaya göstərdi.

Zəfər yoluna paralel olaraq Şuşaya doğru Əhmədbəyli-Füzuli-Şuşa yolu da inşa olunur. Miqyasına görə Zəfər yolundan geri qalmayan bu yolun quruluşu bir qədər fərqlidir. Belə ki, Zəfər yolu dağları doландığı halda, Əhmədbəyli-Füzuli-Şuşa yolu dağların altından qazılan tunellərdən və dərələrdə salınan körpülərdən keçir.

Zəfər yolu ilə Şuşaya doğru irəlilədikcə çoxsaylı tunellərdən, viaduklardan, körpülərdən keçən Əhmədbəyli-Füzuli-Şuşa yolunun da əzəmətini, nəhəngliyini qürurla seyr edirik. Uzunluğu 81,6 kilometr olan yol 4-6 hərəkət zolağından ibarətdir və gələn il istifadəyə veriləcək.

Şuşaya yaxınlaşdıqca isə Daşaltı kəndinin yenidən qurulması ilə bağlı işlərin başlandığını görürük. Daşaltıda ictimai və yaşayış mərkəzləri, mədəniyyət və təhsil ocaqları, sosial obyektlər inşa ediləcək, o cümlədən turizm sahələri yaradılacaq.

### Şəhərin bərpası prosesi sürətlə aparılır

Şuşaya gəlişimiz dumanlı havaya təsadüf etsə də, bu, bizim şəhərin gözəlliklərini və aparılan bərpa-quruculuq işlərini müşahidə etməyimizə mane ola bilmədi. Şuşanın yenidən qurulması isə şəhərin lap girişindən başlayır. Küçənin sağında və solunda aparılan inşaat işlərinin tempindən də bilinirdi ki, şəhərin bərpası prosesi sürətlə aparılır.

Prezident İlham Əliyev Şuşanın bərpası ilə bağlı deyib: "Şuşanın Azərbaycan tarixində xüsusi yeri var və Şuşanın bərpası, dirçəlməsi hamımızın işidir. Əlbəttə ki, bütün işlər planlı şəkildə aparılmalıdır, Şuşanın tarixi siması saxlanılmalıdır, Şuşaya yad olan hər hansı bir tikiliyə yol vermək olmaz".

İşğaldan azad edildikdən sonra Şuşada həyata keçirilən yenidənqurma işləri göstərir ki, bərpa işləri planlıdır və ilk növbədə şəhərin tarixi simasının saxlanılması diqqət mərkəzindədir. Bir daha xatırladaq ki, 2021-ci ildən bəri şəhərdə çoxsaylı layihələrin icrasına başlanılıb və onların bir qismi yerinə yetirilib.

Qısa vaxtda Azərbaycan şairi və ictimai xadimi Molla Pənah Vaqifin muzey-məqbərə kompleksində təmir-bərpa və yenidənqurma işləri aparılıb. Görkəmli Azərbaycan bəstəkarı Üzeyir bəy Hacıbəylinin heykəli və dahi Azərbaycan şairi Molla Pənah Vaqifin büstü qoyulub. Xalq artisti Bülbülün ev-muzeyi bərpa edilib. Qala divarlarında bərpa işləri aparılıb. Şuşadakı Rəsm Qalereyası, Xalçaçılıq Qalereyası da şəhərin bərpa olunan binaları sırasında yer alır. "Xarıbülbül" və "Qarabağ" hotelləri xeyli vaxtdır Şuşaya gələn qonaqların istifadəsindədir. Şuşa Otel-Konqres Mərkəzi Kompleksi isə şəhərin yeni ünvanıdır. Şəhərin su və enerji təchizatı da bərpa olunub.

Şəhərin Qarabağ küçəsində aparılan tikinti işləri öz möhtəşəmliyi ilə diqqəti çəkir. Bu küçəyə "Qarabağ" adını rəmzi olaraq Prezident İlham Əliyev verib. Gövhər ağa məscidi, "Qarabağ" hoteli, xüsusi nümayəndəliyin binası Şuşanın mərkəzini əhatə edən bu küçədə yerləşir. Küçənin yenidən qurulması zamanı Şuşanın tarixi-milli memarlıq üslubunun qorunması xüsusilə diqqət mərkəzində saxlanılır. Tikinti işləri yüksək səviyyədə həyata keçirilir.

Şəhərdə 90 çarpayılıq xəstəxananın, həmçinin 1 nömrəli tam orta məktəbin tikintisi işləri davam etdirilir. 3,7 hektara yaxın sahədə inşa edilən xəstəxana binasının tikinti işlərinə ötən ilin yanvarında başlanılıb. Xəstəxana binası 4-ü dördmərtəbəli, 2-si isə birmərtəbəli olmaqla 6 korpusdan ibarətdir. 960 şagird yerlik məktəb isə üçmərtəbəli olacaq.

İsmayıl bəy Səfibəyov, Əbdürrəhman bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Cabbar bəy Vəlibəyov, Xudadat bəy Məlik-Aslanov, Cavad bəy Məlik-Yeqanov, Rüstəm bəy Axundov, Əhməd bəy Ağaoğlu, Soltan bəy Vəlibəyov, Xan Şuşinski kimi dahilərin təhsil aldıqları Şuşa Realnı Məktəbi də bərpa olunur.

### Heydər Əliyev Fondunun töhfələri

Şuşada quruculuq işlərinin bir qismi, o cümlədən tarixi binaların bərpası Heydər Əliyev Fondu tərəfindən həyata keçirilir. Fondun bu sahədə şəhərdə həyata keçirdiyi layihələr çərçivəsində Şuşanın tarixi, mədəni və dini abidələri sürətlə bərpa edilir. Baş çəkdiyimiz Yuxarı Gövhər ağa və Saatlı məscidləri də fond tərəfindən tam bərpa edilib. Məlum olduğu kimi, Şuşa işğal altında olduğu müddətdə hər iki məscid ermənilər tərəfindən dağıdılmışdı. 2021-ci ilin sonlarından başlanılan konservasiya və bərpa işləri çərçivəsində məscidlərin ilkin memarlıq üslubu saxlanılıb, ermənilər tərəfindən edilmiş müdaxilələr tam aradan qaldırılıb.

Şuşada Mehmandarovların malikanəsi də Heydər Əliyev Fondu tərəfindən bərpa edilib. Xatırladaq ki, XVIII əsrdə inşa olunan və Şuşanın ən möhtəşəm evlərindən olan Mehmandarovların malikanəsində yalnız Qarabağın deyil, bütün Azərbaycanın fəxrinə, qüruruna çevrilmiş şəxsiyyətlər dünyaya gəlib, yaşayıblar. Təsadüfi deyil ki, bu ev Prezident İlham Əliyevin tapşırığı ilə Şuşada bərpa edilən ilk tarixi-memarlıq obyektlərinin sırasına salınmışdı. Malikanə Birinci vitse-prezident Mehriban Əliyevanın şəxsi nəzarəti və himayəsi ilə 2021-ci ilin oktyabr ayından Heydər Əliyev Fondu tərəfindən yeni Şuşanın qədim nümunəsi kimi bərpa edilib.

Milli Xalça Muzeyinin Şuşa filialı da yenidən qurulub. İşğal dövründə bina yararsız hala düşdüyündən və tarixi görkəminə müdaxilələr edildiyindən burada 2021-ci ildən etibarən Heydər Əliyev Fondu tərəfindən bərpa işlərinə başlanılmışdı. Görülmüş işlər nəticəsində binanın tarixi siması özünə qaytarılıb.

Şəhərdə bərpa olunan ünvanlardan biri Yaradıcılıq Mərkəzidir. Mərkəzin hazırkı binası ölkə əhəmiyyətli memarlıq abidəsi siyahısındadır. Heydər Əliyev Fondu tərəfindən burada aparılan bərpa işləri zamanı bina ilkin vəziyyətinə qaytarılıb.

Tarixi Zəfərimizin ildönümü ərəfəsində Şuşada Heydər Əliyev Fondu tərəfindən icrası başa çatdırılan və təqdim edilən layihələrdən biri də "Yasəmən" hoteli oldu. Mehmandarovların malikanəsinin qonşuluğunda yerləşən və autentik üslubda bərpa edilən "Yasəmən" hotelinin eksteryer və interyeri buraya gələnləri Orta əsr Şuşasına qaytarır. Bu, indiyə kimi Şuşada istifadəyə verilən sayca dördüncü hoteldir.

Prezident İlham Əliyevin bu günlərdə Şuşaya səfəri yalnız yeni tikilmiş evlərin Şuşa sakinlərinə verilməsi ilə əlamətdar olmadı. Bu səfər zamanı bərpası Heydər Əliyev Fondu tərəfindən həyata keçirilmiş "Şirin su" hamamının və Mamayı məscidinin də açılışı oldu.

Hazırda fond tərəfindən məşhur tarzən Sadıqcanın evində, Üzeyir bəy Hacıbəylinin ev-muzeyində, Aşağı Gövhər ağa, Çöl Qala məscidlərində bərpa işləri, o cümlədən yeni Şuşa məscidinin tikintisi davam edir.

### Yeni yaşayış binaları Şuşaya xas olan memarlıq üslubu ilə tikilir

Şuşadakı quruculuq işlərinin bir istiqaməti də doğma yurda qayıdacaq şuşalılar üçün yeni evlərin tikintisidir. Qeyd edək ki, şəhərdə sovet dövründə inşa edilmiş və istismar müddətini bitirmiş binalar tədricən sökülür, yeni salınan yaşayış massivlərində daha yaraşıqlı binalar inşa olunur.

Ümumiyyətlə, Şuşada ümumi sahəsi 47 min kvadratmetr təşkil edəcək yeni yaşayış massivi 6 məhəllədən ibarət olacaq. İlk məhəllənin təməli Prezident İlham Əliyev tərəfindən 2021-ci il avqustun 29-da qoyulub. Bu məhəllədəki yaşayış binalarında ümumilikdə 450 mənzil var. Onların 28-i birotaqlı, 195-i ikiotaqlı, 190-ı üçotaqlı, 30-u dördotaqlı və 7-si beşotaqlıdır.

Şuşada olarkən yeni yaradılan məhəlləyə də baş çəkdik. Şuşaya xas olan memarlıq üslubu ilə tikilmiş üçmərtəbəli və beşmərtəbəli binalardan ibarət kompleksdə sakinlərin rahat yaşayışı üçün demək olar ki, hər cür şərait yaradılıb. Habelə ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görülüb. Şuşaya qayıdan ilk 20 ailə də bu məhəllədə məskunlaşıb.

2023-cü il mayın 10-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Şuşa şəhərində 17 binadan ibarət ikinci yaşayış kompleksinin təməli qoyulub. 4,25 hektar ərazidə inşa ediləcək kompleksdə ikimərtəbəli və üçmərtəbəli binalar tikiləcək. Kompleksdəki 238 mənzildən 119-u ikiotaqlı, 119-u isə üçotaqlı olacaq.

Bu il mayın 10-da isə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada inşa ediləcək üçüncü yaşayış kompleksinin təməlqoyma mərasimində iştirak ediblər. Layihə çərçivəsində 17 yaşayış binasının inşası nəzərdə tutulur. Kompleks ümumilikdə 487 mənzildən ibarət olacaq. Tikinti işlərinə bu ilin yayında başlanılması planlaşdırılır.

### Şuşa tezliklə dünyanın ən gözəl şəhərlərindən biri olacaq

İndiyədək Şuşanın kommunal infrastrukturunun bərpası istiqamətində böyük işlər görülüb. Şəhərin elektrik enerjisi ilə təminatında heç bir problem yoxdur. İndiyə kimi 110/35/10 kilovoltluq "Şuşa" yarımstansiyası, "Azərişıq" ASC-nin Şuşa Rəqəmsal İdarəetmə Mərkəzi və Şuşa Elektrik Şəbəkələrinin İnnovativ Texnologiyalar Mərkəzi istifadəyə verilib. Bütün bunlar şəhərin dayanıqlı və keyfiyyətli enerji ilə təchizatı baxımından əhəmiyyətli hadisələrdir.

2020-ci ilin noyabr-dekabr aylarında Şuşaya içməli suyun verilməsi də təmin edilib. Həyata keçirilən təxirəsalınmaz tədbirlər çərçivəsində Kiçik Kirs və Zarıslıdan şəhərə içməli suyun verilməsinə nail olunub.

Şəhərdə daxili yollar da yenidən qurulur. Baş plana əsasən, şəhərdə uzunluğu 36,2 kilometr olan mövcud yollarla yanaşı, həm də 17,6 kilometr yeni yolun inşası da nəzərdə tutulur. Şuşanın küçələrinin adları isə Vətən müharibəsindəki zəferimizi, dövlətçiliyimizi, tariximizi ehtiva edir. Yenidən qurulan küçələrin Heydər Əliyev, 8 Noyabr, Dəmir yumruq, Zəfər, Qarabağ, Atatürk, Pənahəli xan adlandırılması Vətən müharibəsindəki qələbəmizi, tariximizə, milli irsimizə dərin ehtiramı, Azərbaycan-Türkiyə qardaşlığını özündə təcəssüm etdirir.

Baş plan hazırlanarkən şəhərin relyefinə uyğun olaraq yaşıllıqları və landşaftı qoruyub saxlamaq, onu inkişaf etdirmək məqsədilə "yaşıl dəhliz"lərin inşası da nəzərdə tutulur.

Qala şəhərimiz bütün əzəməti ilə yenidən dirçəlir. Bu dirçəliş həm də güclü Azərbaycanı simvolizə edən möhtəşəm quruculuq nümunəsidir. Sürətlə bərpa edilən mədəniyyət paytaxtımızdan ən yüksək və gözəl təəssüratlarla ayrıldıq və bir daha əmin olduq ki, Şuşa tezliklə dünyanın ən gözəl şəhərlərindən biri olacaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

*Bakı-Şuşa-Bakı*